# Hələ də deyirlər çətin adamsan, Çətinlər bu qədər asan sevilməz.



Kəmaləddin QƏDİM

### Seçim yanlış olub...

Bir ömür sürmüşəm yaxşı-yamanlı,
Çox da işim-gücüm çalışmaq olub.
Çox da ki, oğulun-qızın yanında
alnım açıq olub, üzüm ağ olub.

Seçim yanlış olub, seçim, bəlkə də,
Gərəkmiş üstündən keçim bəlkə də.
Ən böyük günahım, suçum bəlkə də
bu bəxtlə, taleylə barışmaq olub.

Ha sev sevdiyini sev, gedən, artıq
saçımda, başımda sevgi dən artıq.
Eh, mənim sevgim də, sevgidən artıq
birinə öyrəşib, alışmaq olub.

Hərdən olmamışam özümdə, Tanrı
Yox olub bu dünya gözümdə, Tanrı
Bağışla, şeirim də, sözüm də, Tanrı,
Sənin işlərinə qarışmaq olub.

### Çətinlər bu qədər asan sevilməz...

Yanımaz dünyaya hər gələn adam,
Dünyaya hər ayaq basan sevilməz.
Gözdən uzaqlarda köhnələn adam,
Qaydan bəyənilməz, yasan sevilməz.

Zaman bir başqadı, qardaş, sən başqa,
Torpaqda dən başqa, saçda dən başqa.
Üstündə kağızdan, qələmdən başqa
bir şey tapılmayan masan sevilməz.

Söylə, görmədinmi darda, çətində
nələr zahirdəydi, nələr bətndə?
Sevilməz Yezidlər səltənətində,
sevilməz, Hüseyn, Həsən sevilməz.

Çox da korun-korun əriyən şamsan,
Nolacaq, əriyib dibinə damsan?
Hələ də deyirlər çətin adamsan,
Çətinlər bu qədər asan sevilməz.

### Allahın tutmağa yaxası yoxdu

Dinirsən, gözünün yaşı əlində,
Heç səndən ürəyi yuxası yoxdu.
Çox da ki, "çuxam, ye" zamanasıdı,
Əynində ki, Bəhlul çuxası yoxdu...

Bir qarnı tox oldun, bir qarnısa ac,
Tərk elə bu bəxti, qaç, qaçdıqca qaç.
Bu cənab Əzrayıl, bu çilingəğac;
Oyuna girdi var, çıxası yoxdu.

Üzü dərgahına durub adamlar,
Bezdirib adamlar, yorub adamlar.
Çəkib, yaxasını cırıb adamlar,
Allahın tutmağa yaxası yoxdu.

### Oyun bitdi, pərdə düşdü...

Vaxt nərdtaxta, zalım fələk as imiş,
Cütlədiyi zər də düşdü, vəssalam.
Yas ardınca yas gətirən yas imiş,
Şər ardınca şər də düşdü, vəssalam.

Sarayların başucunda hərəmlər,
Ciyərlərdə daşa döndü vərəmlər.
Sevgisində dərs olmadı Kərəmlər,
Oda düşən bir də düşdü, vəssalam.

Havalandı, havalardan yıxıldı,
Doğ-doğmaca davalardan yıxıldı.
Nə fərqi var, adam hardan yıxıldı,
Yıxıldıqca dərdə düşdü, vəssalam.

Köhnələrik, köhnəlirik köhnədə,
Div də həmin divdi həmin dəhnədə.
Nə oyunlar oynanıldı səhnədə,
Oyun bitdi, pərdə düşdü, vəssalam...

### Urudsuz gəlmişdi, Uruddu getdi

*Qonşumuz urudlu Aynişan xala yuxuma gəlmişdi*

Yuxuma gəlmişdi Aynişan xala,
Umudsuz gəlmişdi, umuddu getdi.
O qədər şad xəbər dedim ki, vallah,
Dərdini-qəmini unutdu, getdi.

Bir az yaş gəlmişdi yaşının üstə,
Qırışlar artmışdı qaşının üstdə.
Dedim ki, Şuşanın başının üstdə
sən deyən o qara buluddu, getdi.

Sonunda gücümüz gəldi kara, bax,
Sağaldı, korşaldı o bəd yara bax.
Artıq azad olub külli Qarabağ,
Gözünün yaşını qurutdu, getdi.

Gördüm ki, danışmır nəsə, Uruddan,
Qıymadım bir az da susa Uruddan.
Bir şeir oxudum Musa Uruddan
Urudsuz gəlmişdi, Uruddu getdi.

### Mən elə sonrakı ağıl kimiyəm

Diksinməz ahıma, naləmə Tanrı,
Çatsın adamlara naləm çətin ki...
Qutsaldır, and içib qələmə Tanrı,
Büdrəsin əlimdə qələm çətin ki...

Bu şər dedikləri minillik şərsə
hələ çox gedəcək işimiz tərsə.
"Aləm ölər, deyir, alim ölərsə,"
Alim ölüb gedir... aləm çətin ki...

Əlimin bayrağı, ələmi dərddən,
Bağrıbadaş olur bələmi, dərddən?
Eşq ilə tutmuşam şələmi dərddən,
Çətin ağır gələ şələm, çətin ki...

Bir az son kimiyəm, axır kimiyəm,
Bir az röya kimi, nağıl kimiyəm.
Mən elə sonrakı ağıl kimiyəm,
Qayıdıb başıma gələm çətin ki...



### Üstündə səbrin olmaz?

Hər quş xəbər gətirməz,
Hər quş göyərçin olmaz.
Nə yuxular görərsən,
Birisi də çin olmaz.

Ha qoru, çək keşiyin
bu bumbuz, boş beşiyin.
Yaşarsan, ev-eşiyin,
Ölərsən, qəbrin olmaz.

Vaxt da kəskin, sərt gələr,
Oldə min cür şərt gələr.
Bir gün Qiyamət gələr,
Hesabın, cəbrin olmaz.

Gözlərində nəm artıq,
Kədər artıq, qəm artıq.
Dözə bilmirəm artıq,
Üstündə səbrin olmaz?

### Danışırıq

Bumbuzuq, o günlərin
odundan danışırıq.
Hələ damaqda qalan
dadından danışırıq.

Göy bizimdi, yer bizim,
Ev bizimdi, sirr bizim.
Çıxmayıb bir-birmizin
yadından, danışırıq.

Bir kişi vardı, gerçək,
Yada salırıq tək-tək.
Bir də o gözəl-göyçək
qadından danışırıq.

Bu eşq dünyatək gidi,
Bir vaxt şəkər, bal idi.
Özü yaşanıb, bitib,
adından danışırıq...

### Mən olan yeri

Ay bəlalı başımın
duman, çən olan yeri.
Könlümün lalə, nərgiz,
yasəmən olan yeri.

Mənzil uzaq, yol uzun,
Gəlib, çatmaq zor, uzun.
Tanrı özü qorusun
səni, sən olan yeri.

Saçımızda illər dən,
Yetər düşək dillərdən.
Yanaşı şəkillərdən
cır, at mən olan yeri.

* * *

Olə-ayağama dəyib, dolaşdım,
Gözəmi təpildim,
balam, görələr?
Mən bir gözdən uzaq
dağ çiçəyiyəm,
Açdım, gördülərmi,
solam, görələr...